Avropa İttifaqı

unicef
hər bir uşaq üçün

RİİB Regional İnkişaf İctimai Birliyi

# Pozitiv valideynlik uşağın sevmək, inanmaq, araşdırmaq və öyrənmək potensialını artırmağa sövq edən valideynlik səriştəsidir. Aşağıdakı pozitiv valideynlik bacarıqları uşaqları ailə mühitində sağlam böyütməyə geniş imkanlar yaradır:

**1** Hər zaman, xüsusilə çətin vaxtlarda uşağa empatiya göstərmək – onun hisslərini, həyata baxışını anlamağa çalışmaq



**2** Uşağın sözlərinə və emosiyalarına maraq və həssaslıqla yanaşmaq



**3** Valideynliyin çətin olduğunu anlamaq və bu işdə yanlışların ola biləcəyini təbii qəbul etmək



**4** Uşağın öyrənmə və inkişaf potensialını, güclü tərəflərini və bacarıqlarını dəstəkləmək




**5** Yaşına uyğun olaraq uşağın davranışlarını tənzimləmək və ona istiqamət vermək



**6** Uşaq və valideynlərin ehtiyaclarının təmin olunmasında tarazlığı qorumaq



**7** Uşaqla ünsiyyətdə xoş hisslər ifadə etmək



**8** Uşağın nadinc davranışlarına emosional reaksiya verməzdən öncə öz hisslərini cilovlamaq



**9** Ehtiyac olduqda valideynlik bacarıqlarını artırmaq üçün dəstək və məlumat almaq



Bu infoqrafika “Regional İnkişaf” İctimai Birliyi tərəfindən icra olunan “Erkən Uşaqlıq Dövründə İnkişaf” üzrə Milli Kampaniya çərçivəsində hazırlanmışdır. Kampaniyanın maliyyə dəstəkçisi Avropa İttifaqı, tərəfdaşı isə BMT-nin Uşaq Fondunun (UNICEF) Azərbaycandakı Nümayəndəliyidir. İnfoqrafika heç bir halda Avropa İttifaqının mövqeyini əks etdirmir.

EUDİ

www.eudi.az | eudi | eudiazerbaijan | eudi_azerbaijan

Avropa İttifaqı
unicef
hər bir uşaq üçün
RİİB Regional İnkişaf İctimai Birliyi

# KÖRPƏNİZİN İNKİŞAF MƏRHƏLƏLƏRİ

## 2 ay

- Sizə gülümsəyir.
- Qığıltılı səslər çıxarır.
- Səsə tərəf dönür.
- Baxışları ilə əşyaları izləyir.
- Əlini ağzına aparır.
- Qarnı üstə uzadıldıqda başını qısa müddətə saxlaya bilir.



## 4 ay



- Sizinlə oynamağa can atır.
- Bəzi hərəkət və üz ifadələrinizi təkrarlayır.
- Gülür.
- Qığıltılı səslər çıxarır.
- Ailə üzvlərini tanıyır.
  - Arxası üstə və əksinə çevrilə bilir.
  - Əlini oyuncağa doğru uzadır və tutur.

## 6 ay

- Oynamağı sevir.
- Özünə güzgüdə baxmağı xoşlayır.
- Əşyaları ağzına alır.
- Ətrafdakı əşyalara maraq göstərir.
- Dəstək olmadan otura bilir.



## 9 ay

- Yad insanlardan qorxa bilər.
- Sevdiyi oyuncaqları ayıra bilir.
- Gizlədilmiş əşyaları axtarır.
- Bir yerdən tutaraq ayağa qalxır.
- İməkləyir.



## 12 ay

- Ana-ata uzaqlaşanda ağlayır.
- Nağıl dinləmək istəyəndə kitabı sizə uzadır.
- Geyinəndə əl və ayağını uzadır.
- Sadə baş və əl hərəkətləri ilə “danışır” (“yox”, “sağ ol” və s.).



- Sözlərinizi təkrarlamağa çalışır.
- Sadə göstərişləri (“oyuncağı götür”) yerinə yetirir.
- Əşyalardan istifadə etməyi bacarır (fincandan su içir, saçını darayır və s.).

## 18 ay

- Maraqlı görünən əşyaları əli ilə göstərir.
- Oyuncaqlarla “mənalı” oynayır (gəlinciyi “yedizdirir” və s.).
- Şiddətli emosinal hallar (ağlamaq, əsəbləşmək) keçirə bilər.



- Qısa sözləri tələffüz edir.
- Əşyaları tanıyır.
- Sərbəst yeriyir.
- Qaşıqla yemək yeyir.

## 2 yaş

- Başqalarının hərəkətini təkrarlayır.
- Həmyaşıdları ilə oynayanda sevinir.
- Daha sərbəst olmağa çalışır və “olmaz” qadağasına məhəl qoymur.
- Əşyaları tanıyır və göstərir.
- 2-4 sözlük cümlələr deyir.
- Rəng və fiqurları tanıyır.
- Bir yerdən tutaraq pilləkənləri sərbəst qalxıb düşür.
- Qaçır, pəncələri üzərində dayanır.



Bu infoqrafika “Regional İnkişaf” İctimai Birliyi tərəfindən icra olunan “Erkən Uşaqlıq Dövründə İnkişaf” üzrə Milli Kampaniya çərçivəsində hazırlanmışdır. Kampaniyanın maliyyə dəstəkçisi Avropa İttifaqı, tərəfdaşı isə BMT-nin Uşaq Fondunun (UNICEF) Azərbaycandakı Nümayəndəliyidir. İnfoqrafika heç bir halda Avropa İttifaqının mövqeyini əks etdirmir.